**İnvestisiya təşviqi ilə bağlı sahibkarlıq subyektləri üçün təlim və maarifləndirmə tədbirlərinin keçirilməsi haqqında**

Azərbaycan Respublikası Prezidentinin "İnvestisiyaların təşviqi ilə bağlı əlavə tədbirlər haqqında" 18.01.16. tarixli 745 nömrəli, "İnvestisiya təşviqi sənədini almış hüquqi şəxslərə və fərdi sahibkarlara texnikanın, texnoloji avadanlıqların və qurğuların idxalı üçün təsdiqedici sənədin verilməsi Qaydası"nın təsdiq edilməsi, "Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 19.01.16. tarixli 107-VQD nömrəli Qanununun tətbiqi və "Azərbaycan Respublikası Vergi Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun və bu Qanunla təsdiq edilmiş Azərbaycan Respublikası Vergi Məcəlləsinin tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 30.08.2000 tarixli 393 nömrəli Fərmanında dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 15.02.16. tarixli 797 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə" 20.04.16. tarixli 877 nömrəli, "İnvestisiyanın həyata keçirildiyi iqtisadi fəaliyyət sahələri, investisiya layihəsinin həcmi ilə bağlı minimal məbləğ və həyata keçiriləcəyi inzibati ərazi vahidlərinin" təsdiq edilməsi haqqında" 20.04.16. tarixli 878 nömrəli fərmanlarının icrası ilə əlaqədar İqtisadiyyat Nazirliyinin Kollegiyasının 19.07.16. tarixli 8 nömrəli qərarının 6-cı bəndi ilə verilmiş tapşırıqların yerinə yetirilməsi ilə bağlı sahibkarlıq subyektləri üçün təlim və maarifləndirmə tədbirlərinin həyata keçirilməsi məqsədilə "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi haqqında Əsasnamə"nin 5.5.10-cu yarımbəndini rəhbər tutaraq

**əmr edirəm:**

1. "İnvestisiya təşviqi ilə bağlı sahibkarlıq subyektləri üçün keçirilən təlim və maarifləndirmə tədbirlərinin qrafiki" təsdiq edilsin (əlavə olunur).

2. Sənaye şöbəsinin müdiri Murad Abdullayevə tapşırılsın:

2.1. Bakı Biznes Tədris Mərkəzinin direktoru Akif Fərruxovla birlikdə bu əmrin 1-ci bəndində nəzərdə tutulan təlim və maarifləndirmə işlərinin həyata keçirilməsi üçün lazımi əməli metodiki köməkliyin göstərilməsini;

2.2. Regionların inkişafı və dövlət proqramları şöbəsinin müdiri Elşən Əsədov və Sahibkarlığın inkişafı siyasəti şöbəsinin müdiri Elçin İbrahimovla birlikdə investisiya təşviqi ilə bağlı təlim və maarifləndirmə tədbirlərinin yeri və tarixi barədə potensial sahibkarlıq subyektlərinin məlumatlandırılmasını təmin etsin.

3. Aparat rəhbərinin müavini-Daxili nəzarət şöbəsinin müdiri Ayaz Əliyevə tapşırılsın ki, bu əmrin 1-ci bəndinin tam və vaxtında yerinə yetirilməsi üçün zəruri və tələb olunan əməli-metodiki və təşkilati əlaqələndirmə işlərinin həyata keçirilməsini təmin etsin.

4. İctimaiyyətlə əlaqələr şöbəsinin müdiri Abbas Əliyevə tapşırılsın ki, bu əmrin İqtisadiyyat Nazirliyinin rəsmi internet saytında yerləşdirilməsini təmin etsin.

5. Ümumi şöbənin müdiri Rövşən Ataşova tapşırılsın ki, bu əmrin surətinin göndərilmə siyahısına uyğun olaraq çatdırılmasını təmin etsin.

6. Bu əmrin icrasına nəzarət iqtisadiyyat nazirinin müavini Niyazi Səfərova həvalə edilsin.

Əsas: Aparat rəhbərinin müavini-Daxili nəzarət şöbəsinin müdiri ______ tarixli ______ nömrəli xidməti məruzəsi.

Nazir Şahin Mustafayev

**Əmrə əlavə**

**İnvestisiya təşviqi ilə bağlı sahibkarlıq subyektləri üçün keçirilən təlim və maarifləndirmə tədbirlərinin qrafiki***

| **№** | **Tədbirin keçirildiyi yer (iqtisadi rayonlar üzrə)** | **Tarixi** |
|---|---|---|
| **1.** | Abşeron iqtisadi rayonu (Bakı şəhəri) | 2016-cı il 12 oktyabr |
| **2.** | Abşeron iqtisadi rayonu (Bakı şəhəri) | 2016-cı il 19 oktyabr |
| **3.** | Abşeron iqtisadi rayonu (Sumqayıt şəhəri) | 2016-cı il 26 oktyabr |
| **4.** | Gəncə-Qazax iqtisadi rayonu (Gəncə şəhəri) | 2016-cı il 2 noyabr |
| **5.** | Gəncə-Qazax iqtisadi rayonu (Qazax şəhəri) | 2016-cı il 10 noyabr |
| **6.** | Aran iqtisadi rayonu (Mingəçevir şəhəri) | 2016-cı il 16 noyabr |
| **7.** | Aran iqtisadi rayonu (Şirvan şəhəri) | 2016-cı il 23 noyabr |
| **8.** | Şəki-Zaqatala iqtisadi rayonu (Şəki şəhəri) | 2016-cı il 30 noyabr |
| **9.** | Lənkəran iqtisadi rayonu (Lənkəran şəhəri) | 2016-cı il 7 dekabr |
| **10.** | Quba-Xaçmaz iqtisadi rayonu (Quba şəhəri) | 2016-cı il 14 dekabr |
| **11.** | Yuxarı Qarabağ iqtisadi rayonu (Horadiz şəhəri) | 2016-cı il 21 dekabr |
| **12.** | Dağlıq Şirvan iqtisadi rayonu (Şamaxı şəhəri) | 2016-cı il 28 dekabr |